Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 171 (8194) ÇƏRŞƏNBƏ, 7 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Yeni rekord– 49 milyard dollar

## Prezident İlham Əliyevin iqtisadi islahatları sayəsində son 6 ayda Azərbaycanın valyuta ehtiyatları 4 milyard dollar artıb

Azərbaycanın valyuta ehtiyatları 49 milyard dollara çatıb. Həyata keçirilən beynəlxalq layihələr, yaradılan əlverişli biznes mühiti, iqtisadiyyata yatırılan daxili və xarici investisiyalar ölkəmizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırmaqdadır. İlin 6 ayında valyuta ehtiyatlarının 4 milyard dollar artması həqiqətən də böyük uğurdur.

Prezident İlham Əliyevin iyulun 31-də sosial-iqtisadi sahə üzrə keçirilən müşavirədə səsləndirdiyi fikirlər də təsdiq edir ki, Azərbaycan növbəti inkişaf mərhələsinə daxil olub. 49 milyardlıq valyuta ehtiyatlarını böyük sərvət hesab edən dövlət başçısı bu vəsaitdən hər zaman qənaətlə istifadə edildiyini vurğuladı. Məhz bunun sayəsində Azərbaycan böhranlı illərdə, neftin qiyməti aşağı olan dövrdə də öz valyuta resurslarını artırıb.

Son 5 ilin statistik göstəricisi də sübut edir ki, Azərbaycan hər ötən il öz valyuta ehtiyatlarını artıra bilib:

*- 2015-ci il - 37 milyard;*
*- 2016-cı il - 39 milyard;*
*- 2017-ci il - 41 milyard;*
*- 2018-ci il - 45 milyard;*
*- 2019-cu il (6 ayda) - 49 milyard dollar*

Prezident onu da qeyd etdi ki, hökumət hər il valyuta ehtiyatlarını artırmaqla yanaşı, xarici dövlət borcunu kifayət qədər aşağı sala bilib. Bir il ərzində Azərbaycanın xarici borcu 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Çünki bəzi ölkələrdə dövlətin xarici borcu ümumi daxili məhsuldan da artıq, yaxud da ona bərabər olur.

Dövlət başçısı bu sahədə çox diqqətli olmağın vacibliyini də vurğuladı və bildirdi ki, yalnız strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür. Dövlət öz daxili imkanlarından səmərəli istifadə etməlidir.

Altı ay ərzində Azərbaycanın valyuta ehtiyatlarının 4 milyard dollar artması onu göstərir ki, artıq iqtisadi islahatlar real nəticələr verir. Bu nəticələr ilk növbədə ixracyönümlü iqtisadiyyatda öz əksini tapır.

Son 6 ay ərzində Azərbaycanın ixracı 9,98 milyard dollar təşkil edib. Bu müddətdə qeyri-neft sektoru üzrə 979 milyon dollar dəyərində ixrac reallaşdırılıb. 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 iyun tarixinə kimi (30 ay ərzində) dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1,292,2 milyon dollar təşkil edib.

Xatırladaq ki, ötən il Azərbaycan iqtisadiyyatına 14,6 milyard dollar həcmində investisiya yatırılmışdı. Bu ilin 6 ayında isə ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. İqtisadiyyat Nazirliyi tərəfindən 2019-cu il və növbəti 3 il üzrə ortamüddətli dövr üçün ölkəmizin sosial-iqtisadi göstəriciləri hazırlanıb. Əsas kapitala investisiya qoyuluşu 17,9 milyard dollar, daxili sərmayələrin tutumunun 4 milyard dollar təşkil edəcəyi proqnozlaşdırılır.

6 ayda ticarət dövriyyəsi də kifayət qədər - 20 faizdən çox artıb. Qeyri-neft ixracı 15 faiz yüksəlib. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna yatırılıb. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artıb. Təkcə bu ilin 6 ayında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən 6 milyon manatlıq vəsait deməyə əsas verir ki, cari ildə xarici və yerli investorlar tərəfindən ölkə iqtisadiyyatına kifayət qədər sərmayə yatırılacaq.

Məhz aparılan islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Hər il Azərbaycan iqtisadiyyatı güclənir, iqtisadi blokda qeyri-neft sektorunun həcmi artır, sosial sahə prioritet sahəyə çevrilir.

*Ardı 3-cü səh.*

## "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 485; 2001, № 12, maddə 736; 2010, № 10, maddə 839; 2016, № 3, maddə 408; 2019, № 1, maddə 32) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə fərqli qayda müəyyən edilmiş hallar istisna olmaqla, bu Qanunun müddəaları kredit kooperativlərinə də şamil olunur.".

2. 2.1-ci maddəyə "bu Qanundan" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanunundan," sözləri əlavə edilsin.

3. 3-cü maddəyə aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Kredit ittifaqının hüquqi və fiziki şəxslərdən əmanət (depozit) cəlb etməsi qadağandır.".

4. Aşağıdakı məzmunda 18-1-ci maddə əlavə edilsin:

**"Maddə 18-1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması**

Kredit ittifaqlarının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması ilə bağlı fəaliyyəti "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.".

5. 20-ci maddənin 2-ci hissəsinə "mislindən" sözündən sonra "(kredit kooperativinin üzvü istisna olmaqla)" sözləri əlavə edilsin.

6. Mətn üzrə ismin müvafiq hallarında "xüsusi razılıq" sözləri ismin müvafiq hallarında "lisenziya" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1625-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1625-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2019-cu il*

## Hədəf dəyişmir

### Əhalinin sosial müdafiəsinin gücləndirilməsi iqtisadi siyasətin əsas məqsədidir

Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə qeyd olunan əsas məqam ondan ibarət oldu ki, bütün iqtisadi islahatların, reallaşan nəhəng layihələrin, əldə edilən gəlirlərin və maliyyə resurslarının böyük bir qisminin sosial sahəyə, insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilməsi bundan sonra da davam edəcək.

Dövlət başçısı müşavirədəki çıxışında bu ilin əvvəlində 4 milyondan çox insanı əhatə edən çox böyük sosial paketlərin təsdiqlənməsindən, minimum əməkhaqqı və pensiyaların əhəmiyyətli dərəcədə qaldırılmasından danışdı və məxsusi olaraq vurğuladı: "Biz əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir".

Prezident İlham Əliyev hələ ilin əvvəlində bəyan etmişdi ki, bu il sosial inkişafla bağlı çox fərqli bir il olacaq. Elə də oldu. Prezident iki böyük sosial islahat paketi təsdiq etdi. Birinci paket illik 1,6 milyard manatlıq maliyyə tələbi ilə 3 milyon insanı əhatə etdi və qısa müddət ərzində tam şəkildə icra olundu. Ardınca ikinci sosial paket qəbul edildi və o, sentyabr ayının 1-dən etibarən icra olunmağa başlanacaq.

*Ardı 2-ci səh.*

## Bakı daha bir beynəlxalq tədbirə evsahibliyi edir

### XXXI Beynəlxalq İnformatika Olimpiadasında 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət nümayəndə heyətləri iştirak edirlər

Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla irəliyə gedən Azərbaycan müxtəlif beynəlxalq və regional tədbirlərə evsahibliyi edir. Cəmi iki həftə əvvəl Bakıda XV Avropa Gənclər Yay Olimpiya Festivalı keçirildi. Hələ 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, 2016-cı ildən bəri "Formula-1" yarışlarının Azərbaycan Qran-prisi mərhələsi və bir çox digər beynəlxalq tədbirlər də Bakıda uğurla sona çatdırılıb.




1989-cu ildən keçirilən, informatika sahəsində ən nüfuzlu yarışlardan biri hesab olunan Beynəlxalq İnformatika Olimpiadasında isə hər il dünyanın bir çox ölkəsindən məktəblilərə bilik və bacarıqlarını sübut etmək imkanı yaradılır. Azərbaycanda ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında milli komandamız da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə iştirak edir. Bu nüfuzlu beynəlxalq yarışda ölkəmizi indiyə qədər 24 dəfə təmsil edən Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, 5 medal qazanıblar.

*Ardı 3-cü səh.*

## Ermənistanın işğalçılıq siyasətinin növbəti ifşası

Bütün sahələr, o cümlədən hərbi müstəvidə Ermənistan üzərində böyük üstünlüyə malik olan ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu hər dəfə bəyan edir.

Azərbaycan tərəfinin lazım gələrsə güc yolu ilə əraziləri işğaldan azad etmək iqtidarında olmasını isə dünya ictimaiyyəti, o cümlədən işğalçı Ermənistan yaxşı bilir. Real vəziyyətin təhlili onu göstərir ki, Ermənistanın mövcud hakimiyyətinin işğalçılıq siyasətini davam etdirməsi fonunda Azərbaycanın bu məsələni ordusunun hesabına çözməsi qaçılmaz olacaq.

Belə ki, bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Xankəndinin mərkəzi meydanındakı mitinqdə çıxış edərək deyib ki, Yerevanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsumdur" (birləşmək). Bildirib ki, münaqişənin nizamlanmasına dair istənilən qərar ancaq Ermənistan və Dağlıq Qarabağ əhalisinin ümumxalq dəstəyi ilə qəbul oluna bilər. Bildirib ki, Azərbaycanla aparılan danışıqların yekun məqsədi Qarabağın öz müqəddəratını təyin etməsi yolu ilə əldə edilən nəticələri möhkəmləndirməkdir.

Görünən odur ki, Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə istiqamətləndiklərini deməsinə baxmayaraq, onun "miatsum" şüarı məsələnin bu yolla nizamlanmasına şans vermir.

*Ardı 2-ci səh.*

# Bakıda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib









Avqustun 6-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində Bakıda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Ümumi sahəsi 1,4 hektar olan həyət Binəqədi rayonu, Abay Kunanbayev küçəsi 3, 3A, 5/13, 5B, 5V, 5A/15 və Süleyman Sani Axundov küçəsi 15/1 ünvanlarında 2650 nəfər sakinin yaşadığı beşmərtəbəli yeddi binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt Bakıda həyətlərin ekoloji cəhətdən təmiz saxlanılması və abadlaşdırılması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü minifutbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və uşaqlar üçün 3 oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac, gül kolları əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyini təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində paytaxtımızda abadlaşdırılan iyirmi səkkizinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Hədəf dəyişmir

## Əhalinin sosial müdafiəsinin gücləndirilməsi iqtisadi siyasətin əsas məqsədidir

*Əvvəli 1-ci səh.*

Artıq minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışanlardan 400 min nəfərin əməkhaqlarının artırılması, oktyabrın 1-dən etibarən 750 min pensiyaçının təqaüdünün artırılması ilə bağlı bütün hazırlıq işləri yekunlaşmışdır. Beləliklə, hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard, növbəti il üçün 3 milyard manat olmaqla 4,2 milyon vətəndaşı əhatə edir.

Azərbaycanda MDB məkanında alıcılıq qabiliyyəti üzrə minimum pensiya birinci, minimum əməkhaqqı ikinci göstərici olacaqdır. Üstəlik, müavinət və təqaüdlərin artırılması əlilliyi olan 300 min şəxsə, 500 min məcburi köçkünə, 100 min tələbə və gəncə şamil edilir. Yəni bu artımlar əhalinin sosial cəhətdən ən həssas təbəqəsinə aiddir və onların gəlirlərini çox əhəmiyyətli şəkildə artırır. Bunlardan əlavə, qanunvericilikdə aparılan islahatlar sosial sığorta amnistiyası elan edilməsinə imkan yaratmışdır. Bu hesaba 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə belə 25 il sığorta stajı tətbiq olunması qərara alınmışdır.

Özünüməşğulluq sahəsində görülən işlər də minlərlə ailəyə öz güzəranlarını təmin etməyə imkan yaradır. Ötən il bu proqram 6 min ailəni əhatə etmişdir. Bir sözlə, 6 min ailə mikro və kiçik biznesə başlaması üçün aktivlərlə təmin olunmuşdur. Bu il isə İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişiklik edilməsi hesabına əlavə vəsaitin cəlb olunması nəticəsində 10 min ailənin Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi planlaşdırılır. Artıq cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət gəlib. Müraciətlərə baxılarkən əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olan digər insanlara üstünlük verilir.

Bu layihəyə əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə cəlb olunub və 1000-ə yaxın ailə məhz bunun sayəsində öz kiçik biznesinə başlayacaq. Sentyabr ayında isə Dünya Bankı (DB) layihə ilə bağlı təklifini Azərbaycan hökumətinə təqdim edəcək və DB də gələn ildən bu layihəyə qoşulacaq. Onu da qeyd etmək yerinə düşərdi ki, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın genişləndirilməsi şəxsən dövlət başçısı tərəfindən qaldırılan məsələdir.

Məlum olduğu kimi, may ayında Bakıda Beynəlxalq Sosial Təminat Agentliyinin Avropa Forumu keçirilmiş və 55 ölkənin sosial təminat agentliklərinin rəhbərləri DOST mərkəzini ziyarət etmişlər. Qonaqlar bu yeni qurumun fəaliyyətini çox yüksək qiymətləndirmişlər.

Həqiqətən, DOST mərkəzi qısa müddətdə çox böyük rəğbət qazanmışdır. Bunu təxminən iki ay ərzində mərkəzə 20 min vətəndaşın müraciət etməsi də təsdiqləyir. Məlumat üçün bildirək ki, DOST-da göstərilən xidmətlərin sayı 126-dır. Yaxın zamanlarda daha 3 mərkəzin açılması üçün işlər görülür və yaxın müddət ərzində onlar da açılacaq. Bununla Bakının 80 faizi DOST-un xidmətləri ilə əhatə olunacaq. Eyni zamanda regionlarda DOST mərkəzlərinin açılmasına start veriləcək. Beləliklə, DOST mərkəzi Prezidentin növbəti təşəbbüslərindən biri kimi formalaşaraq Azərbaycanın brendinə çevriləcəkdir.

Sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş son müşavirədə dövlət başçısı bir daha vurğulamışdır ki, sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olacaq: "Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən iki dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 6-da Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Yoviç aparıblar.

## Dənizçilərimiz "Təlim-məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunda qalib gəliblər

"Dəniz kuboku - 2019" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri "Gəminin dayanıqlılığı uğrunda mübarizə" üzrə yarışda "Təlim-məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunu yerinə yetiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ekipajlar bu epizodda gəminin təhlükəsizliyinin təmin olunması, həmçinin gəminin xilas olunması üzrə bacarıq və vərdişlərini nümayiş etdiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələdə Azərbaycan 40 balla birinci, İran 34 balla ikinci, Qazaxıstan 31 balla üçüncü, Rusiya komandası isə 30 balla dördüncü yerə layiq görülüb.

## "Beynəlxalq Ordu Oyunları - 2019" yarışlarında Azərbaycanın mədəniyyət nümunələrinə maraq böyükdür

"Beynəlxalq Ordu Oyunları - 2019" yarışları çərçivəsində təşkil olunan "Dostluq evi"ndə Azərbaycan pavilyonu yaradılıb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərginin Azərbaycan bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri və məişətinə aid nümayiş olunan ekspozisiyalar yarış iştirakçıları və qonaqlar tərəfindən böyük maraqla qarşılanır.

# *Hikmət HACIYEV:* "Ermənistan tərəfi təxribatçı açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur"

"Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində "Qarabağ - Ermənistandır" sözlərini qəti şəkildə rədd edirik".



Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Dağlıq Qarabağ - Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı Ermənistanın işğalçılıq və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünü pozması ilə heç vaxt barışmayacaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək.

"Ermənistanın baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməlidir", - deyə Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb.

Hikmət Hacıyev bildirib ki, bu açıqlama ilə Ermənistanın baş naziri həmçinin özü-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyat və yalandan başqa bir şey olmadığını etiraf edir. Bununla Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

"Ermənistan rəhbərliyini əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ilədək inkişafına dair səsləndirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyildir. Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür. Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə məruz qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcəkdir", - deyə Prezident Administrasiyasının rəsmisi vurğulayıb.

# *Azərbaycan XİN:* "Ermənistanın baş nazirinin Xankəndidəki çıxışı onun həqiqi simasını üzə çıxardı"

Ermənistanın baş nazirinin avqustun 5-də Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanılan Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində "ümumermәni oyunları"nın açılışında çıxış edərək reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

Qeyd edilir ki, bəyanatının əsasən daxili auditoriyaya nəzərdə tutulmasına baxmayaraq, bu, Ermənistanın baş nazirinə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin anneksiyasına çağıran fikirlər səsləndirməsinə heç bir əsas vermir.

"Ermənistan baş nazirinin aqressiv bəyanatları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir ki, aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir.

Bu, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı, elə Ermənistanın özünün səsləndirdiyi, "münaqişənin yalnız sülh yolu ilə həlli" çağırışına uyğun gəlmir. N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu.

Bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır. Ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək, istər BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, digər beynəlxalq təşkilatların qərar və qətnamələrində, istərsə də ikitərəfli əsasda qəbul edilmiş çoxsaylı sənədlərdə öz əksini tapıb.

Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək.

Niyyəti həqiqətən inkişaf və tərəqqi olan bir ölkənin rəhbərliyi təcavüzkar siyasət arxasında gizlənərək növbəti 30 ili hədəfləyən xəyali məqsədlər güdməz, əksinə, mövcud vəziyyəti qiymətləndirərək, beynəlxalq hüquqa hörmət əsasında qonşu ölkələrlə münasibətləri normallaşdıraraq daha real nəticələr əldə etməyə hədəflənər. Görünür, Ermənistanın hazırkı rəhbərliyi boş vədlərlə özünü və Ermənistan xalqını aldatmaqla məşğuldur.

Bölgədə yaşanan bütün gərginliklərin, etnik təmizləmə siyasətinin qurbanı olan yüz minlərlə insanın fundamental hüququnun pozulmasının, münaqişənin sülh yolu ilə həllinə vurulan zərbənin və beləliklə də yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan üzərindədir", - deyə bəyanatda vurğulanır.

# Ermənistanın işğalçılıq siyasətinin növbəti ifşası

*Əvvəli 1-ci səh.*

Bunlar eyni zamanda işğalçılıq siyasətinin növbəti ifşası olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlikdir.

Xatırladaq ki, ötən il Avropa İttifaqı və Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri Sənədində Avropa İttifaqı tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstək ifadə olundu. 2018-ci ildə NATO-ya üzv ölkələrin liderlərinin Brüsseldəki sammitinin yekunlarına dair bəyannaməsində yer alanlar da Ermənistan üçün daha bir diplomatik zərbə oldu. NATO-nun Brüssel sammitində qəbul edilən Yekun Kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi ölkəmizin yeni diplomatik uğuruna çevrildi.

Ümumiyyətlə, Paşinyanın sonuncu çıxışından sonra belə bir qənaətə gəlmək olar ki, o, hər vasitə ilə beynəlxalq təşkilatların verdiyi qərarlara hörmətsiz yanaşaraq danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə yarana biləcək vəziyyətin bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşür. Azərbaycan tərəfi isə məsələni kifayət qədər konkret və sərt şəkildə qoyur. Bakının mövqeyi bundan ibarətdir ki, Ermənistanın mövcud rəhbərliyinin təcavüzkar və qəbuledilməz Qarabağ siyasəti Qarabağ danışıqlarını pozmağa yönəlib. Belə vəziyyət, öz növbəsində, münaqişənin alternativ yolla həllini aktuallaşdırır.

Eyni zamanda o da danılmaz faktdır ki, gücdən istifadə edərək Azərbaycan ərazilərinin hərbi işğalının davam etdirilməsinə görə məsuliyyət daşıyan tərəf Ermənistandır. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə görə isə, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana qədər Ermənistan bu məsuliyyətdən qaça bilməz.

Rəsmi Bakı da verdiyi bəyanatda bildirib ki, Paşinyanın reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, bu, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə də böyük zərbədir.

Onu da əlavə edək ki, bu gün dünyanın siyasi müstəvisində özünü qabarıq şəkildə göstərən əsas problemlərdən biri də ikili standartlarla bağlıdır. Xüsusən də Qərb dövlətləri və onların təmsil olunduğu bəzi beynəlxalq təşkilatlar tərəfindən dünyada gedən proseslərə ikili standartlar əsasında yanaşılması özünü getdikcə daha çox büruzə verir. Əksər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması haqqında qərar və qətnamələri var. Amma bunların heç biri icra olunmur. Bu gün beynəlxalq ictimaiyyət Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqe nümayiş etdirməsinə, status-kvonun qorunub saxlanması cəhdlərinə, danışıqların pozulmasına yönəlik addımlarına kəskin iradını bildirmir. Halbuki Ermənistan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri başda olmaqla digər nüfuzlu beynəlxalq qurumların da qərar və qətnamələrini icra etməkdən boyun qaçırır. Eyni zamanda, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında əks olunmuş status-kvonun saxlanmasının yolverilməzliyi, hərbi əməliyyatlardan çəkinməsi və münaqişənin sülh yolu ilə həlli təkliflərini də hesaba almır.

Birmənalı qəbul olunan həqiqətdir ki, işğal siyasətinə son qoymayacağı təqdirdə Ermənistanı qarşıdakı dövr ərzində daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə, ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə Ermənistanın təcridini daha da dərinləşdirib.

Burada nəzərə almaq lazımdır ki, Azərbaycan diplomatiyası uğurlu addımları ilə konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. Ermənistan isə işğal siyasətinə görə bu sistemdən kənarda qalır. Yəni Azərbaycana qarşı yürütdüyü təcavüz və işğal siyasətinə görə Ermənistan bu gün geosiyasi və geoiqtisadi baxımdan özünü təcrid vəziyyətinə salıb.

Ermənistanın düşdüyü geosiyasi və geoiqtisadi təcrid vəziyyətindən yeganə çıxış yolu Azərbaycana qarşı işğala son qoyması, qonşu dövlətlərlə sivil münasibətlər qurmasıdır. Əks təqdirdə Ermənistanın sosial-iqtisadi və demoqrafik vəziyyətinin daha da ağırlaşması qaçılmazdır.

Görünən odur ki, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Yeni rekord - 49 milyard dollar

## Prezident İlham Əliyevin iqtisadi islahatları sayəsində son 6 ayda Azərbaycanın valyuta ehtiyatları 4 milyard dollar artıb



Əvvəli 1-ci səh.

Ölkəmizin inkişafı dünya statistikasında da özünü göstərir. ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da Azərbaycanın ən böyük irəliləyiş edən ölkə kimi təqdim olunması bunun əyani təsdiqidir. Son bir neçə ildə hazırlanan digər beynəlxalq hesabatlarda da bunu görə bilərik. Məsələn, "Doing Business 2018" hesabatında Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılıb. "Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı.

Bütün bunlar cənab İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlarına verilən beynəlxalq qiymətdir. Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirməsi təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik. Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev də sosial-iqtisadi sahə üzrə keçirilən müşavirədə qarşıdakı hədəfləri bəyan edərkən vurğuladı ki, Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Bütün lazımi tədbirlər görülüb və təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır.

Həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində Azərbaycan dinamik inkişaf yolunda irəliləyir. Ölkə iqtisadiyyatının inkişaf tempini əks etdirən rəqəmlər, statistik göstəricilər də deməyə əsas verir ki, 2019-cu ildə qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı daha bir beynəlxalq tədbirə evsahibliyi edir

## XXXI Beynəlxalq İnformatika Olimpiadasında 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət nümayəndə heyətləri iştirak edirlər




Əvvəli 1-ci səh.

Ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən, Təhsil Nazirliyinin təşəbbüsü, ADA Universiteti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, eləcə də digər dövlət qurumlarının dəstəyi ilə Bakı Konqres Mərkəzində avqustun 5-də keçirilən XXXI Beynəlxalq İnformatika Olimpiadasının rəsmi açılış mərasiminə hökumət nümayəndələri, xarici ölkə səfirləri və digər qonaqlar da qatıldılar.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.

Məktubda deyilir: "Sizi - dünyanın müxtəlif guşələrindən Bakıya toplaşmış XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hamınıza uğurlar arzu edirəm. Ümidvaram ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcəkdir".

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da iştirak etdiyi tədbir xüsusilə gənclər arasında dostluq, sülh və mədəniyyətlərarası dialoqun inkişafında böyük rol oynayır. Təhsil naziri Ceyhun Bayramov da olimpiada ilə bağlı fikirlərini bildirərkən qeyd edib ki, beynəlxalq elmi olimpiadalar elmin populyarlaşdırılması üçün bir vasitədir: "Son 6 ildə məktəblilər bu olimpiadalardan 150-dən çox medal gətiriblər və bu sayın artacağı gözlənilir. Təhsil müddətində əldə olunan biliklərdən səmərəli istifadə etmək bu medalları qazanmaq qədər vacibdir. Bu gün dünya dördüncü sənaye inqilabında hansı bilik və bacarıqların tələb olunacağını müzakirə edir. Robototexnika, böyük məlumatlar, süni intellekt və avtomatlaşdırma gündəlik həyatımıza daxil olub. Belə bir dövrdə vacib məsələ kəşf edilən və ediləcək qabaqcıl texnologiyalardan bəşəriyyətin daha çox faydalanacağına əmin olmaqdır..."

Yeri gəlmişkən, informatika üzrə ilk beynəlxalq olimpiada 30 il əvvəl Bolqarıstanda keçirilib. Bu beynəlxalq nüfuzlu tədbirə maraq ildən-ilə artıb. "IOI" iştirakçılarının bir çoxu hazırda startap və innovasiya ilə məşğul olan aparıcı İT mütəxəssisləridir. Danılmaz həqiqətdir ki,1965-ci ildə Berklidə, Kaliforniya Universitetinin professoru, görkəmli Azərbaycan alimi Lütfi-Zadə qeyri-səlis məntiq nəzəriyyəsi ilə elmdə inqilab etdi. O zaman yəqin ki, qeyri-səlis məntiqin gündəlik həyatımıza avtomobil, elektronika, tibb, nəqliyyat, telekommunikasiya və digər sahələrdəki texnologiyalar vasitəsilə daxil olacağını təsəvvürə gətirmək indiki kimi asan deyildi. Məhz bu yanaşma ilə deyə bilərik ki, Lütfi-Zadə bugünkü gənclər üçün elm və bəşəriyyətin gələcəyinə sadiqliyin bir rəmzidir.

ADA Universitetinin rektoru, "IOI 2019"un fəxri sədri Hafiz Paşayev açılış mərasimindəki çıxışında bildirib ki, olimpiadanın təşkilində əsas məqsədlərdən biri informatika sahəsində qabiliyyətli gəncləri tanıtmaq və kompüter elmlərinin vacibliyini onlara çatdırmaqdır: "Bu gün auditoriyada əyləşənlər növbəti 10-15 ildə texnoloji inkişafın meyillərini və gündəmini formalaşdıracaqlar. Buna görə də bizim bu tədbirə evsahibliyimiz Azərbaycanın həm təhsil, həm də İT sektoruna dərin marağı, qayğısı və dəstəyini nümayiş etdirir".

Beynəlxalq İnformatika Olimpiadasının prezidenti, professor Qreq Li "IOI 2019"un açılış bəyannaməsini diqqətə çatdırıb, yarışmanın dəyəri barədə ətraflı söz açıb.

Olimpiadanın rəsmi qlobal sponsoru "Acer"in Rusiya, Şərqi Avropa və Türkiyə üzrə vitse-prezidenti Qriqori Nizovski isə "Acer" və "IOI" əməkdaşlığından danışıb.

Qeyd edək ki, XXXI Beynəlxalq İnformatika Olimpiadası avqustun 11-dək davam edəcək. Bu beynəlxalq tədbirin də yüksək səviyyədə təşkili üçün müasir tələblərə cavab verən məkanlar seçilib. Bağlanış mərasimi Heydər Əliyev Mərkəzində keçiriləcək olimpiadanın iştirakçıları "Atletlər kəndi"ndə yerləşdirilib. Mədəni-kütləvi tədbirlər proqramının bir hissəsi kimi, Qobustan, Yanardağ, Atəşgah, Nobel qardaşlarının ev-muzeyi və digər məkanlara ekskursiyalar təşkil olunacaq. Burada iştirakçılar üçün əyləncə zonası fəaliyyət göstərəcək və həmçinin onlar müxtəlif tədbirlər, maraqlı proqramlar sayəsində yarışdankənar, asudə vaxtlarını da səmərəli keçirə biləcəklər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

*Elmar MƏMMƏDYAROV:*

# "Azərbaycan Türkmənbaşıda iqtisadi foruma yetərincə əsaslı şəkildə hazırlaşıb"

**Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov "Vneşnyaya politika i diplomatiya Turkmenistana" jurnalına müsahibə verib.**

AZƏRTAC həmin müsahibəni təqdim edir.

***- Cənab nazir, Siz Türkmənistan Prezidentinin Aktau şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında səsləndirdiyi I Xəzər İqtisadi Forumunun keçirilməsi təşəbbüsünü necə qiymətləndirirsiniz?***

- İlk növbədə, fürsətdən istifadə edib, Türkmənistan xalqına ən səmimi istəkləri çatdırmaq və sizi bir daha Azərbaycanda ölkənizə ənənəvi olaraq daim hiss etdiyimiz dostluq münasibətlərinə, qardaşlıq hisslərinə əmin etmək istərdim. Bizi tarixən ümumi köklər birləşdirir, coğrafi baxımdan biz Xəzərlə bağlıyıq. Xəzər xalqlarımızın taleyində həmişə mühüm rol oynayıb. Odur ki, heç də təsadüfi deyil ki, istər Azərbaycanda, istərsə də Türkmənistanda Xəzər dənizinin, habelə sahilyanı ölkələr arasında beynəlxalq əməkdaşlığın potensialının açılmasına belə böyük əhəmiyyət verilir.

Bununla əlaqədar olaraq, biz öz tərəfimizdən Xəzər İqtisadi Forumunun çağırılması haqqında Türkmənistan Prezidentinin təşəbbüsünü alqışlayırıq. Bu təşəbbüs tərəfimizdən qəbul edilmiş və beş Xəzəryanı ölkə arasında əməkdaşlığın Xəzəri sülh, mehriban qonşuluq və əməkdaşlıq zonasına çevrilməsini elan edən Konvensiyanın müddəalarını praktiki məzmunla dolğunlaşdırmaq naminə fəallaşdırılmasının yeni formatına çevriləcək.

***- Gələcəkdə Xəzəryanı regionun iqtisadi inkişafında Azərbaycan Respublikasının rolunu və potensialını necə qiymətləndirirsiniz?***

- Məlum olduğu kimi, sənayeləşmə erası başlayandan etibarən Bakı istər quruda, istərsə də dənizdə neft-qaz resurslarının mənimsənilməsinin pioneri və əsas mərkəzi olub. Bu, XIX əsrdə də, sovet dövründə də, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövrdə də belə olub. Biz regionumuzun zəngin iqtisadi potensialının açılmasında bu fəal iştirak xəttini davam etdirmək əzmindəyik. Əlbəttə, Azərbaycan Respublikası qonşu ölkələrlə sıx qarşılıqlı fəaliyyəti birgə səylərimizə ciddi təsir edən amil kimi nəzərdən keçirir. Biz həm ikitərəfli və üçtərəfli əsasda, həm də bütün Xəzəryanı dövlətləri birləşdirən əsasda qarşılıqlı faydalı kooperasiyanın müxtəlif formatlarına açığıq. Əsas məsələ budur ki, həyata keçirdiyimiz layihələr ölkələrimizin maraqlarına cavab versin və müxtəlif sahələrdə aramızda mövcud olan əməkdaşlığın daha da dərinləşməsinə xidmət etsin.

Azərbaycan öz iqtisadiyyatının strateji inkişaf kursunu, o cümlədən regional əməkdaşlığın birgə inkişafımızın əldə edilməsi naminə daha da genişlənməsi və dərinləşməsi kursunu bundan sonra da ardıcıl olaraq həyata keçirəcək.

***- Cənab nazir, mümkünsə, 2019-cu il avqustun 12-də Türkmənbaşı şəhərində keçiriləcək Xəzəryanı Dövlətlərin İqtisadi Forumuna Azərbaycan nümayəndə heyətinin hazırlığı və qarşıdakı görüşlərdən, bu forumda qəbul ediləcək qərarlardan sizin gözləntiləriniz barədə bir neçə kəlmə deyə bilərsinizmi?***

- Artıq qeyd etdiyim kimi, Azərbaycan Xəzəryanı ölkələrin iqtisadi əməkdaşlığının möhkəmlənməsinə və zəngin potensialının tam açılmasına çox böyük maraq göstərir. Zənnimizcə, biz Türkmənbaşıda keçiriləcək iqtisadi foruma yetərincə əsaslı şəkildə hazırlaşmışıq. Xəzəryanı ölkələrin əməkdaşlığının bu formatının işə salınmasından bizim əsas gözləntilərimiz qarşılıqlı fəaliyyəti regionda həyata keçirilən mühüm təşəbbüslər çərçivəsində konkretləşdirməkdən ibarətdir. Düşünürük ki, energetika, logistika və digər layihələrin intensivləşdirilməsi ölkələrimizin hər birinin və bütövlükdə Xəzər məkanının maraqlarına xidmət edəcək.

Türkmənistanlı həmkarlarımızı və tərəfdaşlarımızı bu mühüm təşəbbüs münasibətilə bir daha təbrik etmək istərdim. Əminəm ki, bu təşəbbüs həm Türkmənistanın, həm də Azərbaycanın və digər Xəzəryanı dövlətlərin inkişafı naminə nəzərəçarpacaq bəhrələr verəcək.

# Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü: yenidənyüklənmə şansı

Bu il oktyabrın 25-26-da Azərbaycan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi edəcək. Təşkilatın miqyası, onun siyasi və iqtisadi potensialı, dünya siyasətinə təsir imkanları nəzərə alınmaqla bu hadisənin ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Bu Zirvə Görüşü müstəqil Azərbaycanın tarixində ən iri beynəlxalq siyasi tədbirlərdən biri olacaq. Politoloqların və ekspertlərin diqqət yetirdikləri daha bir mühüm məqam ondan ibarətdir ki, 1989-cu ildə keçirilmiş Belqrad Zirvə Görüşündən 30 il sonra Azərbaycanın timsalında Avropa qitəsi BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatın iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarını yenidən qəbul edəcək.

## Zərurətdən yaranan birlik

Qoşulmama Hərəkatı dünyanın 120 ölkəsini birləşdirir. Hərbi siyasi bloklarda iştirakdan imtina, xalqların müstəqillik və hüquq bərabərliyi prinsipləri əsasında dinc yanaşı yaşaması bu ölkələrin xarici siyasət kursunun əsası hesab edilir. Təşkilat 1955-ci ildə Asiya və Afrika ölkələrinin Bandunq Konfransında təsis edilib. O vaxt gənc dövlətlər postmüstəmləkə asılılığından azad və müasir iqtisadiyyat qurmaq imkanını təmin edən inkişaf yolunu, daha ədalətli və optimal beynəlxalq münasibətlər sisteminin qurulması yollarını axtarırdılar. Qoşulmama Hərəkatının banilərindən biri, 1945-1967-ci illərdə İndoneziyanın Prezidenti olmuş Əhməd Sukarnonun o vaxt qeyd etdiyi kimi, Qoşulmama Hərəkatının yaradılmasının əsası coğrafi, irqi və dini birlik deyil, "zərurətdən yaranan birlik" idi. Müharibəsiz dünyaya ehtiyac vardı, çünki Qoşulmama Hərəkatı soyuq müharibə, birinin mərkəzi SSRİ, digərinin mərkəzi ABŞ olan iki blokun geosiyasi, hərbi, iqtisadi və ideoloji qarşıdurması dövründə müəyyən mənada çəkindirici amil kimi formalaşmışdı. İqtisadi və sosial tərəqqiyə, inkişaf üçün ədalətli və bərabərhüquqlu şəraitə ehtiyac vardı.

Bandunq Konfransında qəbul edilmiş Ümumi sülhə və əməkdaşlığa dəstək haqqında Bəyannamədə ölkələrin dinc yanaşı yaşamasının və əməkdaşlığının on prinsipi şərh edilmişdi: əsas insan hüquqlarına, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə hörmət; bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət; bütün irqlərin hüquq bərabərliyinin, bütün böyük və kiçik millətlərin bərabərliyinin tanınması; başqa ölkəyə hərbi müdaxilədən və onun daxili işlərinə qarışmaqdan çəkinmə; BMT Nizamnaməsinə müvafiq olaraq hər bir ölkənin fərdi və kollektiv müdafiə hüququna hörmət; kollektiv müdafiə barədə sazişlərdən böyük dövlətlərdən hər hansı birinin şəxsi maraqları üçün istifadə edilməsindən çəkinmə; hər hansı ölkənin başqa ölkələrə təzyiq göstərməkdən çəkinməsi; hər hansı ölkənin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı təcavüz və ya güc tətbiqetmə aktlarından, yaxud bu cür təhdidlərdən çəkinmə; bütün beynəlxalq mübahisələrin dinc vasitələrlə nizamlanması; qarşılıqlı maraqlara və əməkdaşlığa yardım; ədalətə və beynəlxalq öhdəliklərə hörmət.

Bu prinsiplər 1961-ci il Belqrad Konfransının Bəyannaməsində də öz əksini tapıb. Qoşulmama Hərəkatının rəsmi tarixi həmin konfransdan başlanır. Həmin vaxt Qoşulmama Hərəkatının üzvü olan 25 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə qəbul edilmiş sənəddə Hərəkatın baza prinsipləri şərh edilib: beynəlxalq münasibətlərdə diktatın, hegemonluğun və ekspansiyanın qəbul edilməməsi; dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın zəruriliyi; ədalətə və hüquq bərabərliyinə əsaslanan yeni iqtisadi qaydanın formalaşması uğrunda mübarizə. O vaxtdan dünyada çox şey dəyişib, lakin zənnimcə, göstərilən prinsiplər bu gün də öz aktuallığını itirməyib.

## Dünyanın üçdə ikisi

Bu gün Yer kürəsi əhalisinin təqribən 55 faizi Qoşulmama Hərəkatı ölkələrində yaşayır. Dünyada neft ehtiyatlarının 75 faizindən və qaz ehtiyatlarının 50 faizindən çoxu bu dövlətlərin ərazisində yerləşir. Onların çox böyük insan ehtiyatları və təbii resursları var. Mübahisəsiz faktdır ki, bütün bu potensialdan səmərəli və ağlabatan şəkildə istifadə edilsə, o, dünyada baş verən proseslərə təsir göstərməyə qabil olan qüdrətli siyasi qüvvəyə çevrilə bilər.

Azərbaycan nisbətən yaxın vaxtda - 2011-ci ildə Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olub. Cəmi səkkiz ildən sonra həmin təşkilatın bu qədər mühüm, dünyanın yarıdan çoxunun təmsil olunacağı beynəlxalq tədbirinə ölkəmizin evsahibliyi etməsi, şübhəsiz ki, Azərbaycanın artan beynəlxalq nüfuzunun etirafı deməkdir.

Son illərdə gedən proseslərə nəzər salsaq, prinsip etibarilə tam qətiyyətlə demək olar ki, Qoşulmama Hərəkatının üzvü olan yüzdən çox ölkənin dövlət və hökumət başçılarının görüş yeri kimi məhz Bakının seçilməsi Prezident İlham Əliyev başda olmaqla ölkə rəhbərliyinin yürütdüyü ölçülüb-biçilmiş və tarazlaşdırılmış, Azərbaycan xalqının milli maraqlarına əsaslanan xarici siyasətin, respublikanın bütün sahələrdə qazandığı sanballı uğurların məntiqi nəticəsidir.

Qoşulmama Hərəkatının Zirvə Görüşünün məhz Azərbaycanda keçirilməsini şərtləndirən amillər sırasında aşağıdakıları göstərmək olar:

- ölkəmiz bu təşkilatın prinsiplərini bütünlüklə dəstəkləyir və onlara şərikdir, onlara sadiq olduğunu nümayiş etdirir;

- rəsmi Bakı dünyanın əsas güc mərkəzlərindən bərabər məsafədə olmağı təmin edən müstəqil siyasət yürüdür, bütün ölkələrlə (Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan istisna olmaqla) xeyirxahlığa, praqmatizmə, qarşılıqlı faydaya əsaslanan yaxşı münasibətlər saxlayır, dəfələrlə sübut edib ki, heç bir kənar qüvvə öz iradəsini Azərbaycana zorla qəbul etdirə bilməz;

- Azərbaycan Cənubi Qafqazın şəksiz iqtisadi lideridir, regionun iqtisadiyyatının 80 faizdən çoxu onun payına düşür, o, həm də regionun siyasi mərkəzidir;

- Azərbaycan beynəlxalq münasibətlərin fəal və hörmət qazanmış aktorudur. Bunu belə bir fakt da sübut edir ki, 2011-ci ildə ölkəmiz 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Ondan əvvəl postsovet respublikaları arasında yalnız Ukrayna bu şərəfə layiq görülüb. Yeri gəlmişkən, Azərbaycanın 155 ölkənin səsini toplamaqla Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində Qoşulmama Hərəkatının iştirakçıları olan ölkələrin dəstəyi də mühüm rol oynayıb.

Bu postulatın daha bir təsdiqi ondan ibarətdir ki, son üç ildə Azərbaycan mütəmadi olaraq Rusiya və NATO-nun hərbi rəhbərliyinin görüşləri keçirilən yer olur, bu görüşlərdə dünyanın təhlükəsizliyinin mühüm problemləri həll edilir. Zənnimcə, bu faktın əhəmiyyəti üzərində ətraflı dayanmağa ehtiyac yoxdur. Bəli, bu halda Azərbaycan həmin görüş üçün yalnız məkan təqdim edir, lakin əgər bizim ölkəmiz xüsusi beynəlxalq etimad qazanmış olmasaydı, heç kəs həmin görüşləri burada keçirməzdi. Dünyada 200-ə yaxın ölkə var, lakin Moskva və Brüssel məhz Azərbaycanı seçir. Zənnimcə, bu barədə düşünməyə dəyər.

Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir, iri siyasi, mədəni-humanitar, idman tədbirlərinin təşkili və keçirilməsi sahəsində sanballı təcrübə qazanıb.

## Azərbaycanın prioritetləri

Qoşulmama Hərəkatında iştirakın Azərbaycana verdiyi xarici siyasət dividendlərindən danışmalı olsaq, Prezident İlham Əliyevin qarşıdakı Zirvə Görüşü ilə əlaqədar 2019-cu il 11 fevral tarixli sərəncamında dəqiq ifadə edildiyi kimi, bu iştirak ölkəmizin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsi, müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün əlverişli şərait yaradıb.

Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün lap əvvəlindən bu təşkilat respublikamızın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı surətdə dəstəklədiyini bildirib, qəbul edilmiş bütün sənədlərdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini məhz bu prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt cari ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının Venesuelanın paytaxtı Karakasda keçirilmiş iclasında qəbul olunmuş yekun sənəddə də aydın şəkildə təsdiq edilib. Həmin sənəddə Azərbaycanın mövqeyini dəstəkləyən ayrıca bir bənddə qeyd edilir ki, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş müvafiq qətnamələrə baxmayaraq, Ermənistan ilə Azərbaycan arasında münaqişənin hələ də nizamlanmaması beynəlxalq və regional təhlükəsizliyə, sülhə təhdid mənbəyi olaraq qalır. Qoşulmama Hərəkatının nazirləri BMT Nizamnaməsində göstərilmiş güc tətbiq edilməməsi prinsipinin əhəmiyyətini bir daha təsdiq edərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar vasitəsilə nizamlanması yollarını axtarmağa çağırıblar. Bu, dünyanın 120 dövlətinin, yəni, planetin təqribən üçdə iki hissəsinin mövqeyidir!

Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə Görüşü Azərbaycandan ötrü dünyanın diqqətini illər boyu davam edən münaqişəyə cəlb etmək üçün daha bir imkandır. Bu münaqişənin həllinə ölkəmizin ərazisinin 20 faizini işğal etmiş Ermənistanın qeyri-konstruktiv mövqeyi, dünyada mövcud olan ikili standartlar, təcavüzkara təsir göstərmək, onu sivil normalar çərçivəsində davranmağa məcbur etmək üçün hüquqi mexanizmlərin olmaması və ya qeyri-mükəmməlliyi mane olur.

Lakin təbii ki, Azərbaycan dünya birliyinin məsuliyyətli üzvü kimi, diqqəti təkcə öz probleminə cəlb etməyəcək, xüsusən ona görə ki, bu problemin həlli çox cəhətdən qarşıdakı illərdə və onilliklərdə dünyanın necə olacağından, hansı prinsiplərin rəhbər tutulacağından asılıdır. Bu mənada, 2019-2021-ci illərdə Qoşulmama Hərəkatında sədrlik edəcək ölkə kimi, Azərbaycanın üzərinə çox mühüm vəzifə düşür.

Bakı bu təşkilatda sədrlik dövründə öz prioritetlərini artıq müəyyən edib. Bu prioritetlər beynəlxalq münasibətlər sistemində Hərəkatın rolunun və nüfuzunun daha da artırılması, beynəlxalq səviyyədə onun baza prinsiplərinin inkişaf etdirilməsi, qanunların aliliyi, beynəlxalq hüququn normalarına və əsas Bandunq prinsiplərinə riayət edilməsi əsasında dövlətlərarası münasibətlərin formalaşmasına kömək, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verilməsi və planetdə davamlı inkişaf məsələlərindən ibarətdir.

## Daha mükəmməl və ədalətli dünya naminə

Beynəlxalq aləmdə baş verən proseslərin məntiqi elədir ki, məhz indiki vaxtda, dünyanın çoxqütblü olduğu, geosiyasi xəritədə yenidən qarşıdurma vəziyyətində olan bloklar və koalisiyalar yarandığı şəraitdə soyuq müharibə başa çatandan sonra bir qədər zəifləmiş Qoşulmama Hərəkatının rolu yenidən artmaqdadır. Zaman etibarilə bu dövr Azərbaycanın təşkilata sədrliyi ilə eyni vaxta düşür. Formalaşmış dünya nizamı yenidən pozulur, yeni güc mərkəzləri yaranır, dövlətlər arasında münasibətlərin formatı dəyişir, köhnə ziddiyyətlər dərinləşir, ənənəvi tərəfdaşlar barrikadanın müxtəlif tərəflərində qalır, çoxillik rəqiblər isə geosiyasi və iqtisadi maraqların üst-üstə düşməsi zəminində ortaq dil tapırlar. Yeni lokal münaqişə ocaqlarının genişmiqyaslı müharibələrə çevrilməsi təhlükəsi yaranır, demokratiya bayrağı altında bir sıra ölkələrin dövlətçiliyi sarsıdılır. Bu şəraitdə Qoşulmama Hərəkatı dünya arxitekturasında tarazlaşdırıcı və çəkindirici amil kimi öz yerini tapmalıdır. Belə bir fikirlə razılaşmaq olar ki, Qoşulmama Hərəkatı bircinsli təşkilat deyil, bu Hərəkatda iqtisadi inkişafın, dövlət təsisatlarının mükəmməlliyinin, daxili sabitliyin, əhalinin sosial rifahının səviyyələri tamamilə fərqli olan ölkələr təmsil edilib, həmin ölkələrin müəyyən beynəlxalq problemlərə baxışları üst-üstə düşmür. Lakin bu da mübahisəsiz faktdır ki, Qoşulmama Hərəkatının iştirakçısı olan bütün ölkələr, əlbəttə, daha yaxşı, daha mükəmməl dünyada yaşamaq istəyirlər. Bu ölkələr elə dünyada yaşamaq istəyirlər ki, orada onlara inkişaf modellərini kənardan zorla qəbul etdirməsinlər, bu və ya digər şəraitdə özlərini necə aparmalı olduqlarını, başqa dövlətlərlə münasibətləri necə qurmağı, kiminlə dostluq etməyi və tərəfdaşlıq əlaqələri qurmağı, öz təbii sərvətləri barəsində necə sərəncam verməyi diktə etməsinlər, xoşlarına gəlməyən rejimlərin qollarını burmasınlar, orada müharibələr ucbatından ölkələrin dağılması və məhv olması təhlükəsi yoxdur, kənar müdaxilələr münaqişələrə, vətəndaş müharibələrinə, milyonlarla qaçqın ordusunun yaranmasına gətirib çıxarmır. Bu ölkələr birləşərək öz siyasi iradəsini nümayiş etdirə bilər, bu iradəni planetimizi daimi sürətlə silahlanma, sərt qarşıdurma və özbaşına sanksiyalar arenasına çevirmək cəhdlərinə qarşı yönəldə bilərlər. Qoşulmama Hərəkatının keçən ilin aprelində Bakıda keçirilmiş "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda nazirlər konfransında Prezident İlham Əliyevin çıxışında vurğuladığı kimi, "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda, demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

Bunun üçün Qoşulmama Hərəkatının fəaliyyətinin yenidənyüklənməsinə ehtiyac var. Taleyin qismətindən bu dövr Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyi ilə eyni vaxta düşür. Bu mənada həm qarşıdakı Bakı Zirvə Görüşünün, həm də Azərbaycanın sədrliyinin Qoşulmama Hərəkatı üçün dönüş dövrü kimi tarixə düşmək şansı var.

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri,***
***OANA-nın prezidenti***




# Məhsulumuz bol, qazancımız çox



Pambıq hər zaman Muğan düzünün şöhrəti olub. Sabirabad camaatı uzun illər pambıq əkib-becərib, istehsal etdikləri məhsulla həm iqtisadiyyatımızın güclənməsinə töhfələr veriblər, həm də halal qazancları ilə özlərinin firavan həyatlarını, xoş güzəranlarını təmin ediblər.

Təəssüf ki, bir ara pambıq gözdən salındı, arxa plana keçdi. Amma nə yaxşı ki, "ağ qızıl"a belə münasibətin ömrü uzun sürmədi. Azərbaycanda aparılan aqrar islahatlar çərçivəsində Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrini, o cümlədən pambıqçılığı inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri, imzaladığı sərəncamlar bu sahədə əsaslı dönüşün bünövrəsini qoydu. Digər bölgələrdə olduğu kimi, Sabirabad rayonunda da sanki kənd əhalisinin üstünə gün doğdu. Bərəkətli çöllərimizin yenidən çal-çağırlı günləri başladı.

Sabirabadda hamı pambıqçıdır desəm, mübaliğə olmaz. Mən özüm 20 ildir ki, pambıq əkib-becərirəm. Keçən il 100 hektar sahədə aqrotexniki tələblərə ciddi əməl etməklə bol məhsul yetişdirdik. Hər hektardan 32 sentner pambıq götürdük. Bu, rayonumuz üçün yüksək göstərici idi.

Cari ildə pambıq əkini sahələrini daha da genişləndirib 130 hektara çatdırmışıq. Hazırda becərmə ilə məşğuluq. Çəkdiyimiz zəhmət hədər getmir. Kollar yavaş-yavaş bara dolur. Bütün qüvvə və bacarığımızı sərf edərək çalışırıq ki, məhsuldarlığı 35 sentnerə çatdıraq.

Bizim Zəngənə kəndinin torpaqları münbit, adamları əməksevərdir. Təsərrüfatımızda 30 ailə birləşib. Birlikdə işləyir, bol məhsul istehsal edir, bunun qarşılığında da yaxşı qazanc əldə edirik. Keçən il ümumi gəlirimiz 240 min manatdan çox olmuşdur. Cari il məhsul istehsalını artırmaqla, heç şübhəsiz, qazancımızı da artıracağıq. Əminik ki, çəkdiyimiz zəhmət hədər getməyəcək.

***Fəxrəddin ƏSGƏROV,***
***Sabirabad rayonu, fermer***

# Aqrar islahatlar kəndlərimizin sosial simasını dəyişmiş, iqtisadi imkanlarını artırmışdır

Son illər kəndlərimizin siması tamamilə dəyişmişdir. Yollar yenidən qurulmuş, ən ucqar kəndlərə qaz çəkilmiş, yaşayış məntəqələri içməli su ilə təmin olunmuş, rabitə sistemi müasir səviyyəyə çatdırılmışdır. Kəndlərdə ən müasir tələblərə cavab verən istehsal sahələri, eləcə də fermer təsərrüfatları, aqroparklar yaradılmışdır ki, bunun da nəticəsində qeyri-neft sektorunun inkişafı xeyli sürətlənmişdir.

Hazırda kənd təsərrüfatının bütün sahələrində sürətli inkişaf gedir. Dövlətin yaratdığı münbit şəraitdən yararlanan kəndli daha çox məhsul istehsal etmək üçün əlindən gələni əsirgəmir. Elə cari ilin 6 ayında əldə olunan nəticələr də bunu deməyə əsas verir. Samuxlular cari ilin 6 ayı ərzində bütün sahələr üzrə uğurlu göstəricilərə nail olmuşlar. Rayonun fermerləri bu mövsüm 9623 hektar sahədən 319 min 890 ton taxıl toplamışlar ki, bu da hər hektardan 33,3 sentner məhsul deməkdir.

Taxılçılığın inkişafına verilən dəstəyin sayəsində rayonda bu sahəyə maraq xeyli artmışdır. Təsərrüfatlar hər il əkin sahələrini genişləndirir, daha məhsuldar toxumlardan istifadə edərək istehsalı artırırlar. "Murovdağ" kəndli-fermer təsərrüfatı cari il 500 hektar sahədə taxil yetişdirmiş, hektardan 37 sentner məhsul götürmüşdür. Təsərrüfatın rəhbəri Araz Süleymanov deyir ki, istənilən qədər texnikaları var və onları lizinq yolu ilə güzəştli qiymətlərlə alıblar. Əvvəlki illərdə olduğu kimi, bu il də yüksək göstəricilərə nail olmuş və 1850 ton taxıl istehsal etmişlər. İndi dövlətdən 45 min manat subsidiya almaq üçün lazımi sənədlər hazırlayırlar.

Rayondakı "Aqro Dairy" və "Aqro Suplay" MMC-lər də bu il taxıl istehsalında yüksək göstəricilərə nail olmuşlar. Cari ilin məhsulu üçün keçən il "Aqro Dairy" MMC 1476, "Aqro Suplay" MMC isə 978 hektarda taxıl əkmişlər. Aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi nəticəsində hər iki təsərrüfatda yüksək məhsuldarlığa nail olunmuşdur.

"Aqro Suplay" MMC-də taxılın səpilməsindən tutmuş biçinəcən lazım olan bütün texnika var. Təsərrüfat hətta yığılmış məhsulu saxlamaq üçün 40 tonluq anbar da inşa etmiş, əkin sahələrinin 2756 hektarında pivot suvarma qurğusu quraşdırmışdır. Əkin və biçində istifadə olunan texnikalar dövlətin güzəştli kreditləri ilə alınıb. Təsərrüfatın rəhbəri Kamran Aqasi bildirir ki, onlara məxsus əkin sahələrindən çox səmərəli istifadə olunur: "Taxıl biçini başa çatan kimi yerində təkrar əkin aparılaraq dən üçün qarğıdalı əkirik. Keçən il təkrar əkindən 11 min ton qarğıdalı götürdük. Bu il də təkrar əkin aparmışıq - 2456 hektarda dən üçün qarğıdalı əkmişik".

Məmməd Ələkbərov isə nəinki rayonda, eləcə də ölkədə rekord göstəricidə taxıl istehsal edən fermerlərdəndir. O, qazandığı bu nailiyyəti dövlətin ona göstərdiyi qayğının nəticəsi kimi qiymətləndirir. Deyir ki, bu il 65 hektar taxıl sahəsinin hər hektarından 60 sentner məhsul götürüblər.

Samuxda kartofçuluğun inkişafına da diqqətlə yanaşılır. Bu il rayonda 334 hektarda kartof əkilmişdir. İndiyədək 111 tondan çox məhsul toplanıb. Yığım isə davam edir. Rayonda ən çox kartof əkən təsərrüfatlardan biri "Gilan Dairy Farms" MMC-dir. Təsərrüfat bu il əkin sahələrini genişləndirərək 170 hektara çatdırıb. İndiyədək hər hektardan 250 sentner məhsul götürülüb. Mütəxəssislərin fikrincə, 4500 ton məhsul gözlənilir. Hazırda kartof texnikanın köməyi ilə çıxarılır ki, bu da məhsulun maya dəyərini aşağı salır.

Rayon sakinləri istixanaların yaradılmasına da maraq göstərirlər. Hazırda Samuxda 100 hektara yaxın istixana fəaliyyət göstərir. İstixanalarda əsasən pomidor, xiyar və çiyələk yetişdirilir. Əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövründə də bu sahədə uğurlu göstəricilərə nail olunmuşdur. Belə ki, 6 ay ərzində 4 min 30 ton məhsul istehsal olunmuşdur ki, onun da 80 faizi Rusiyaya ixrac edilmişdir. Hazırda rayonda 10 kənddə istixanalar fəaliyyət göstərir və onlarda 500-dən çox samuxlu işlə təmin olunmuşdur.

Rayonda ən çox istixanası olan təsərrüfatlardan biri Qovlarsarı kəndindəki "Azrusdostluq" MMC-dir. Təsərrüfatda 15 hektar istixana var. Təsərrüfatın icraçı direktoru Ehram Mikayılov deyir ki, əsasən pomidor və xiyar yetişdirirlər. Bu il 774 ton pomidor istehsal edilib və onun 350 tonu ixrac olunub. Hazırda burada 57 nəfər işlə təmin edilib.

Rayonda digər kənd təsərrüfatı məhsullarının istehsalında da artım qeydə alınmışdır. Məsələn, indiyədək 1821 hektar meyvə bağından keçən ilin müvafiq dövrü ilə müqayisədə 60 ton çox meyvə toplanmışdır. Bostan, tərəvəz, üzüm və digər məhsulların istehsalında da yüksək göstəricilərə nail olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***





## Sitrus bağlarında karantin zərərvericilərinə qarşı mübarizə tədbirləri aparılır

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Astara Rayon Bitki Mühafizəsi Mərkəzinin yerli mütəxəssisləri və təsərrüfat subyektləri tərəfindən sitrus bağlarında son həftə ərzində 161 hektar sahədə müşahidələr aparılıb, 75 hektarda karantin zərərvericiləri olan sitrus ağqanadlısı, lağımlayıcı sitrus güvəsi və karantin yastıcılara rast gəlinib. Sirayətlənmiş 63 hektarda kimyəvi mübarizə tədbiri həyata keçirilib.



Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildirilir ki, sitrus ağqanadlısı karantin zərərvericisi Astara və Lənkəran rayonlarında müşahidə olunur. Zərərvericilərin sürfələri həmişəyaşıl bitkilərin yarpaqlarında qışlayır. Sürfələr yazda inkişafını başa çatdırır, yetkin hala keçir və cavan yarpaqların alt səthinə tək-tək və qrup halında 60-170 ədəd yumurta qoyur. Təxminən 6-7 gündən sonra yumurtalardan sürfələr çıxır. Onlar üç dəfə qabıq dəyişir və nimfalara çevrilir. Mühit amillərindən asılı olaraq sürfələrin inkişafı 25-30, nimfaların inkişafı isə 15 günə başa çatır. Bu zərərverici əsasən limon, narıngi, portağal, çay, xurma, qreypfrut, dəfnə bitkilərinə ziyan vurur.

Sitrus bağlarında zərərvericilərə qarşı mübarizə tədbirləri davam edir.

# Taxılçılar nəticədən razıdırlar

Son illər Xızı rayonunda taxılçılığa maraq xeyli artıb. Əgər 2017-ci ilin payızında 3026 hektar sahədə taxıl əkilmişdisə, keçən payızda bu rəqəm 5437 hektara çatdırılmış, 3488 hektara buğda, 1949 hektara arpa səpilmişdir.



Rayonda əsasən "Qobustan", "Əzəmətli", "Nurlu-99", "Azəri-95", "Günəşli", "Günel" sortlarına üstünlük verilir. Cari ildə havaların yağışlı keçməsi taxıl biçinini bir qədər ləngitsə də, fermerlər ruhdan düşməyib, yetişdirdikləri məhsulu itkisiz yığmaq üçün qüvvələrini əsirgəməyiblər. Adıgözəl Səfərov, Zaman İsgəndərov, Zinyət Yaqubova, Səidə Dadaşova və digərləri daha çox fərqlənirlər. Onlardan biri təcrübəli fermer Elvin Eminovdur. O, artıq bir neçə ildir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Söhbət zamanı Elvin dedi ki, ailəliklə taxıl becəririk. Ötən il kombayn sarıdan korluq çəkdik. Bu il isə hər şey qaydasındadır. Odur ki, gələn il daha çox ərazidə taxıl əkmək fikrindəyik.

Şəxsi texnikalarından istifadə edən fermerlər şəraitə uyğun hərəkət edirlər. Bu da əkilən məhsulun itkisiz yığımı ilə nəticələnir. Hazırda biçilmiş sahələr şumlanır. Əvvəllər bir çox yerlərdə taxıl biçildikdən sonra həmin sahələrə od vururdu. İndi buna yol verilmir, təhlükəsizlik məsələləri daim diqqətdə saxlanılır. Əkin sahələrinin yanğınla üzləşməməsi üçün rayonun əlaqədar təşkilatları xüsusi iş rejiminə keçib. Taxıl biçini zamanı yanğın törədə biləcək bütün hallar öncədən nəzərə alınır. Odur ki, son illər bununla bağlı heç bir xoşagəlməz hadisə baş verməyib. Yanacaq və sürtkü yağları sarıdan da korluq olmayıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Qurban bayramı ilə əlaqədar "Kənddən Şəhərə" yarmarkası təşkil ediləcək

Avqustun 12-13-də ölkəmizdə Qurban bayramı qeyd olunacaq. Bu münasibətlə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə növbəti bayram yarmarkası keçiriləcək.

Sosial dəstək mahiyyəti daşıyan "Kənddən Şəhərə" yarmarkasının əsas məqsədi azgəlirli ailələrin qurbanlıq qoyunlara olan tələbatını dolğun şəkildə ödəmək, istehlakçıların seçim imkanlarını artırmaq və bayramla əlaqədar bazarlarda yaranacaq süni qiymət artımının qarşısını almaqdır.

Bayram günlərində təşkil ediləcək qurbanlıq qoyunların satış yarmarkası ölkə ərazisində 30 fərqli nöqtəni əhatə edəcək və onlardan 19-u Bakıda təşkil ediləcək. "Kənddən Şəhərə" satış yarmarkasına 20000-ə yaxın qurbanlıq qoyun çıxarılması planlaşdırılır. Qoyunların qiymətləri çəkilərinə uyğun olaraq 160, 170 və 180 manat dəyərində müəyyənləşdirilib.

Qeyd edək ki, Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bayram günlərində qurbanlıq heyvan satışı və kəsimi ilə məşğul olan şəxslərə müraciət edib. Agentlik bayram günlərində qurbanlıq heyvan satışı və kəsimi ilə məşğul olan şəxslərə şəhərimizin küçələrində və yol kənarlarında antisanitar şəraitin yaradılmaması üçün heyvan satışı və kəsimini, baytarlıq-sanitariya və gigiyenik normalara cavab verən mövcud stasionar heyvan kəsimi məntəqələrində və Qurban bayramı ilə bağlı yerli icra hakimiyyətləri tərəfindən təşkil olunmuş müvəqqəti kəsim düşərgələrində həyata keçirməyi tövsiyə edir. AQTA bəyan edib ki, bayram günlərində heyvan kəsiminin müvafiq qaydada həyata keçirilməsini təmin etmək üçün respublika üzrə 44 stasionar və 30 çadır tipli kəsim məntəqəsi fəaliyyət göstərəcək.

# Halal zəhmətin bəhrəsi

Nankor ermənilər havadarlarının köməyi ilə Laçını işğal edəndə rayon əhalisi respublikanın bütün bölgələrinə səpələndi. Mirzə Cümşüdov ailəsi ilə Tərtər rayonunun İsmayılbəyli kəndinə üz tutdu. Tərtərdə də atəş səsləri tez-tez eşidilirdi. Düşmən səngərlərindən atılan top mərmiləri evləri dağıdır, mülki adamlar həlak olurdu. Ancaq hər dəfə də düşmən əks həmlə ilə susdurulur, layiqli cavab alırdı.



Mirzə də çətinliklərə, məhrumiyyətlərə dözüb tablaşdı. Günlər aylara, aylar illərə calandıqca qaməti dikəldi, sabaha inamı artdı. Mehrini torpağa saldı. Həvəslə əkin-biçin işlərinə qoşuldu. İsti yuvasından, rahat ev-eşiyindən perik salınan ailə çoxdan istifadəsiz qalan uçuq-sökük bir tarla düşərgəsinə sığındı. Beləcə, Mirzə hər şeyə sıfırdan başladı. Ülfət bağladığı torpaqdan güc alıb əkib-biçdi, ailəsinin ruzisi üçün hər əziyyətə qatlaşdı.

İndi o ağrı-acılarla, çətinliklərlə dolu günlər arxada qalıb. Bu gün Tərtərdə qabaqcıl əmək adamlarından söz düşəndə Mirzə Cümşüdovun da adı birincilər sırasında ehtiramla çəkilir.

Mirzə Cümşüdovun fermer təsərrüfatı əsasən taxıl toxumçuluğu üzrə ixtisaslaşmışdır. Təsərrüfatın istifadəsində 68 hektar torpaq sahəsi var. Bu il 40 hektar sahədə taxıl əkib-becərmişlər. 208 ton taxıl istehsal edilmiş, orta məhsuldarlıq hər hektarda 52 sentner olmuşdur. Bu, rayonun təsərrüfatları arasında yüksək nəticələrdən sayılır. Hazırda fermer təsərrüfatı üzvlərinin qayğılı günləridir. İstehsal olunmuş taxıl toxum üçün hazırlanır. Təqribən 170 ton toxumluq taxıl olacağı gözlənilir.

Fermer təsərrüfatının üzvləri baramaçılığın inkişafına da böyük önəm verirlər. Bu sahədə də dövlət başçısının tapşırıq və tövsiyələrini konkret fəaliyyət proqramına çevirən qabaqcıl kollektiv baramaçılığın inkişafı üçün etibarlı yem bazası yaradıb. 2016-cı ildə 16,5 min, 2017-ci ildə 4 min, 2018-ci ildə 22 min Çin Xalq Respublikasından gətirilən ting əkilmişdir. Kollektiv bu il 520 kiloqram barama istehsal etmişdir. Söhbət zamanı Mirzə Cümşüdov dedi ki, təkcə barama tədarükündən bu il 4680 manat gəlirimiz olub. Taxıl toxumu satışından isə təxminən 100 min manat gəlir gözləyirik.

Fermer təsərrüfatının üzvləri pambıq, yonca, kartof, tərəvəz əkini ilə də məşğul olur, mal-qara saxlayırlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Çəltik əkinlərinin elmi əsaslarla həyata keçirilməsinə maraq çoxalır

Beynəlxalq ictimai rəydə formalaşan fikirlərə görə, düyü dünya əhalisinin qidaya artan tələbatının ödənilməsində mühüm əhəmiyyət daşıyır. Xüsusilə bu qidaya böyük marağın olduğu Şərq və Asiya ölkələrində çəltikçiliyin inkişafı üçün daha əlverişli imkanlar var. Hər iki regionda düyüyə marağın olması həm dini, həm sağlamlıq, həm də təsərrüfat ənənələri ilə izah olunur.

Sağlamlığa təsirlərinə gəldikdə isə, düyünün tərkibi vitamin, protein və karbohidratlarla zəngin olduğu üçün orqanizmə güc verir, insanı daha tez doydurur, aclıq hissini aradan qaldırır. Düyü əksər ölkələrdə əhalinin qidalanma strukturunda "üçüncü çörək" kimi qəbul edilir.

Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli deyir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bütün bu amilləri nəzərə alaraq 2012-ci ildə mərkəzi İranın Rəşt şəhəri olmaqla Mərkəzi və Qərbi Asiya üzrə Regional Çəltik Tədqiqatı və Təlimi Mərkəzi (CWARice), onun nəzdində isə Beynəlxalq Çəltik Tədqiqatı İnstitutu (IRRI) təsis edib: "Üzvləri Azərbaycan, Türkiyə, İran, Əfqanıstan, İraq, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Türkmənistan olan mərkəzin əsas vəzifəsi çəltiyin əkildiyi ölkələr arasında elmi yenilikləri təbliğ etmək, tədqiqat və istehsal proseslərini koordinasiya, təcrübə mübadilələrini təmin etmək və üzv ölkələr arasında istehsal həcmini artırmaqdan ibarətdir. Bu məqsədlərə çatmaq üçün ildə bir neçə dəfə üzv ölkələrin nümayəndələri mərkəzə dəvət olunur, sahə nümayişləri, forum və müzakirələr keçirilir, təcrübə mübadiləsi aparılır".

Bu il keçirilmiş növbəti görüşdə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktor müavini Şikar Əhmədov və fermerlərlə birgə Azərbaycanı təmsil etdiklərini deyən N.Nəsirli bildirib ki, səfər günlərində Beynəlxalq Çəltik Tədqiqatı İnstitutunun nümayiş sahələrində son illər əldə edilən sort və hibrid növlərlə yaxından tanış olublar, laboratoriya şəraitində aparılan analiz və araşdırmalar haqqında ətraflı məlumat alıblar.

Yeri gəlmişkən qeyd edək ki, mərkəzin İranda yerləşməsi təsadüfi deyil. Bu ölkədə çəltikçilik xeyli inkişaf edib. Çəltik ölkənin kənd təsərrüfatında ən strateji bitkidir, minlərlə əkinçi öz sahəsində çəltikçiliyi elmi yolla inkişaf etdirir, haşimi, sədri, şuridi, gilanə sortlarının toxumçuluğu təmin olunur.

Şöbə müdiri daha sonra deyib: "Öyrəndik ki, hazırda çəltikçiliyin qarşısında duran əsas vəzifələr toxumçuluğun elmi əsaslarla təşkili, becərmədə kimyəvi deyil, bioloji üsullardan istifadə olunması, dad və keyfiyyət göstəricilərinin yüksəldilməsi kimi vacib məsələlərdir. Gilan vilayətinin Rüstəmabad yaşayış məntəqəsində fermer Həsən Mişanpurun əkin sahəsində çəltiyin minikombaynlar vasitəsilə biçin prosesini izlədik, çeşidlənmə, qablaşdırma qaydaları ilə maraqlandıq, emal müəssisəsində çəltiyin son məhsula çevrilməsini müşahidə etdik".

# XI Qəbələ Beynəlxalq Musiqi Festivalı xarici ölkələrdə də maraqla izlənilib

Ölkəmizdə, qədim Qəbələ şəhərində hər il böyük təntənə ilə keçirilən Beynəlxalq Musiqi Festivalı bu il də öz möhtəşəmliyi ilə diqqət çəkib. Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə reallaşan XI Qəbələ Beynəlxalq Musiqi Festivalı nəinki Azərbaycan, hətta xarici ölkə vətəndaşları tərəfindən də böyük maraqla izlənildi.



Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı dünya musiqisevərləri tərəfindən mədəniyyətlərarası münasibətlərə böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın festival iştirakçılarına təbrik məktubunda deyildiyi kimi: "Ayrı-ayrı ölkələrdən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə, mədəniyyətlərarası dialoqun təşviqinə xidmət edir".

İyulun 31-də başlanan və altı gün davam edən musiqi bayramında Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən dünya şöhrətli dirijorların, görkəmli musiqiçilərin, orkestrlərin, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivlərinin çıxışları seyrçilər tərəfindən rəğbətlə qarşılanıb, Yaşlı və təcrübəli musiqiçilər sənətə qədəm qoyan neçə-neçə istedadlı gənclə tanış olublar, məsləhət və tövsiyələrini veriblər.

Festivalın davam etdiyi günlərdə rəngarəng proqramlı konsertlərə tamaşa etmək üçün ətraf bölgələrdə istirahətdə olan turistlərdən də gələnlər çox olub. Klassik musiqi əsərlərini mükəmməl ifada canlı dinləmək imkanı qazanan tamaşaçılar bundan böyük zövq alıblar. Qazaxıstanlı qonaq Altay Nuranbekov mətbuata açıqlamasında bildirib:

- Bizim turist dəstəmiz İsmayıllıda olanda eşitdik ki, Qəbələdə Beynəlxalq Musiqi Festivalı keçirilir. Buna çox sevindik, vaxtımızı daha mənalı keçirmək üçün oraya yollandıq. Siz bilməzsiniz, mən və yoldaşlarım bu gəlişdən nə qədər məmnun olduq. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik və Azərbaycan Dövlət Simfonik orkestrlərinin konsertlərini, "Cello Extravaganza" və dünya şöhrətli pianoçu Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş "Oksana Yablonskaya və dostları" adlı konsert proqramlarını, "Kiyev virtuozları" simfonik və Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrlərinin, "Naz-nazı" muğam qrupunun müşayiəti ilə Azərbaycanın gənc muğam ifaçılarının, "Clarte" klarnet kvartetinin, Türkiyədən gəlmiş "Trio Miraculum" qrupunun çıxışlarından yüksək zövq aldıq. Arada Qazaxıstanla, evlə, ailə ilə, dostlarla əlaqə saxlayırdıq. Biz onlara bu barədə danışanda onlar da mavi ekran vasitəsilə bu festivalı izlədiklərini bildirirdilər. Mən bir incəsənət adamı kimi deyə bilərəm ki, insanları, dünyanın uzaq və yaxın ölkələrində yaşayan musiqisevərləri bir-birinə yaxınlaşdıran ən böyük vasitə musiqi və bu kimi tədbirlərdir. Qərara almışıq ki, bu barədə ölkəmizin aparıcı qəzetlərində çıxış edək. Televiziya kanalları üçün maraqlı anlar, musiqi nömrələri lentə ala bilmişik. Bir sözlə, bu festival haqqında təəssüratımız böyükdür.

Festival başlayan gündən Naxçıvandan, Gəncədən, Qubadan, bir sözlə, Azərbaycanın bütün bölgələrindən, hətta qonşu İran, Türkiyə, Rusiya, Gürcüstan və digər xarici ölkələrdən internet vasitəsilə bu barədə çoxlu təşəkkür dolu məktub, müraciət və teleqramlar almışıq. Festivalın bağlanış günü İranın Təbriz şəhərindən sinir xəstəlikləri üzrə tanınmış həkim, professor Əli Faxxari telefon açaraq demişdir:

- Son illər ölkəniz çox dəyərli beynəlxalq tədbirlərə - forum, konfrans, simpozium və festivallara evsahibliyi edir. Qəbələdə keçirilən və ənənə halını alan bu dəyərli beynəlxalq musiqi festivalına hər il evsahibliyi etmək təqdirəlayiqdir. Mən və həmkarlarım, minlərlə təbrizli televiziya ekranları vasitəsilə bu bayramın iştirakçısı oluruq, minlərlə təbrizlı festivalı ilk gündən son günə kimi böyük maraqla izləyir. Festivaldan çox böyük zövq aldıq. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə uğurla başa çatan bu festival bir daha təsdiqləyir ki, Azərbaycan müxtəlif ölkə xalqlarının mədəni dəyərlərini eyni dərəcədə, həm də çox mükəmməl formada təqdim etməyi bacaran gözəl məkandır. Bir ziyalı kimi həmişə diqqət edirəm: dövlət başçısı İlham Əliyev, eləcə də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva həmişə müxtəlif mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında birliyin daha da gücləndirilməsinə xüsusi səy göstərirlər. Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı keçirilən mədəniyyət və incəsənət tədbirləri Azərbaycanın digər xarici dövlətlərlə əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Azərbaycanın mədəni əlaqələri genişləndikcə dünyada tanınır və sülhpərvər bir ölkə kimi sevilir. Ölkənizin dünya dövlətləri, dünya xalqları arasında artan nüfuzu bizi də məmnun edir. Möhtəşəm musiqi bayramı olan Qəbələ festivalı əhali arasında musiqi zövqünün formalaşmasına, dünyanın və Azərbaycanın musiqi ənənələrinin tanınmasına böyük töhfə verir.

Məşhurlardan biri demişdir: "Musiqinin gücü və qüdrəti sərhədsizdir". Doğrudan da, bu, belədir. Uğurla başa çatan XI Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyanın müxtəlif ölkələrindən gələn məşhur solistlərin, ansamblların ifası ilə xalqların mənəvi yaxınlığını hiss etməyi bir daha dünyaya göstərdi.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***


## BP şirkəti Şəfəq-Asiman üzrə hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi elan edir ki, podratçı tərəflərin adından Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədini hazırlayıb və dərc edib

Sənəddə Şəfəq-Asiman dəniz blokunda kəşfiyyat quyusunun qazılması işlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və təsirin azaldılması üçün görülməli tədbirlər tövsiyə edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərdən yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyənləşdirmək, minimuma endirmək və mümkün olduqda aradan qaldırmaqdır.

Hazırda Şəfəq-Asiman Kontrakt sahəsində suyun təxminən 624 metr dərinliyində bir kəşfiyyat quyusunun qazılması planlaşdırılır. Qazma işlərinin 2019-cu ilin dördüncü rübündə başlanacağı gözlənilir.

Şəfəq-Asiman Kontrakt sahəsi Xəzər dənizinin Azərbaycan sektorunda Bakıdan cənub-şərq istiqamətində təxminən 125 km məsafədə suyun dərinliyi təxminən 600-800 metr olan ərazidə yerləşir. Məhsuldar layın dərinliyi təxminən 7000 metr təşkil edir.

Maraqlı tərəflərlə məsləhətləşmə ƏMSSTQ prosesinin mühüm elementidir. Maraqlı tərəflərin rəylərinin toplanması və sənədləşdirilməsi prosesi layihənin planlaşdırılmasında və ƏMSSTQ-də əsas maraqlı tərəflərin ümumi rəylərinin nəzərə alınmasını təmin edir.

ƏMSSTQ sənədinin tam layihə variantı və qısa xülasəsi Azərbaycan və ingilis dillərində hazırlanıb və BP-nin vebsaytında yerləşdirilib:

**https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and-social-documentation.html**

05 avqust 2019-cu il tarixdən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti, 153
- M.F. Axundov adına Milli Kitabxana: Xaqani küçəsi, 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası: Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi, 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyli küçəsi, 5, Qoqol küçəsi, 2
- Libraff kitab mağazası: Hüseyn Cavid küçəsi, 186 (Mirvari Park kompleksi, Blok D)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Yeni Salyan şosesinin 3-cü km (Bakı Ali Neft Məktəbinin kampusu)

Sizi ƏMSSTQ sənədinin layihə variantına dair rəylərinizi və fikirlərinizi bildirməyə dəvət edirik. Xahiş olunur, öz rəy və təkliflərinizi 05 oktyabr 2019-cu il tarixədək BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarovaya göndərəsiniz:
e-poçt: **esiafeedback@bp.com**
**Telefon: (012) 404-69-19 və ya (055) 225-90-13**


# Vətəndaşların təhlükəsizliyinin təminatı hər şeydən önəmlidir

Bakı şəhəri, Yasamal rayonu Mirzə Ağa Əliyev küçəsi 150 ünvanında yerləşən 3 mərtəbəli 43 mənzilli yaşayış binası hər an uça bilər, lakin bəzi sakinlər binanı tərk etməkdən imtina edirlər. 1889-cu ildə tikilmiş bina istismar müddəti bitdiyindən və uzun müddət əsaslı təmir olunmadığından kəskin qəzalı və yaşayış üçün yararsız vəziyyətə düşmüşdür.





Bina hələ 1989-cu ildə Bakı Şəhər XDS İcraiyyə Komitəsinin 16.06.1989-cu il tarixli, 5/195 saylı qərarı ilə qəzalı hesab edilərək sökülməli idi. Həmin il sakinlərin oradan köçürülməsinə başlanılaraq binadan 23 ailə köçürülmüş, sonradan isə işlər yarımçıq qaldığından boşalmış mənzillər Qarabağ münaqişəsinin başlanması ilə əlaqədar öz doğma yurdlarını tərk etmiş məcburi köçkünlər tərəfindən zəbt edilmişdir. O zaman ölkədəki mürəkkəb sosial-iqtisadi vəziyyətlə bağlı sakinlərin köçürülməsi və binanın sökülməsi işləri təxirə salınmışdır.

Keçən 30 il ərzində binada vəziyyət daha da ağırlaşmış, yaşayış üçün tam yararsız vəziyyətə düşmüş və hər an uçma təhlükəsi yaranmışdır. Bu da sakinlərin həyatı və onların əmlakı üçün ciddi təhlükədir. Hələ 2011-ci və 2017-ci illərdə Fövqəladə Hallar Nazirliyi, "Azərdövləttikintilayihə" Dövlət Layihə İnstitutunun mütəxəssislərinin keçirdikləri təkrar baxışlar bina ilə bağlı əvvəlki rəyləri bir daha təsdiqləmiş, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə onların dərhal köçürülməsi, ərazinin hasarlanması və həyətə girişin məhdudlaşdırılması ilə bağlı akt tərtib olunmuşdur.

Dövlət tərəfindən ayrılmış vəsaitə uyğun şəkildə bu binada sakinlərin köçürülməsi işlərinə başlanmış və buna praktiki nail olunmuşdur. 43 ailədən 25-i dövlət tərəfindən ayrılan maddi yardımları alaraq binadan köçmüşlər. Sakinlərin bir hissəsi isə dövlət qurumları qarşısında qeyri-real tələblər irəli sürərək mənzillərini tərk etməkdən imtina etmiş, bundan başqa digərlərini də qanunsuzluqlara təhrik edərək bəzi KİV-də hüquqlarının pozulması ilə bağlı kampaniya təşkil etməyə cəhdlər göstərmişlər.

Ötən həftə narazı sakinlərlə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov da görüşmüşdür. Görüş elə qəzalı binada keçirilmişdir. Görüşdə Eldar Əzizov binanın kəskin qəzalı olması ilə əlaqədar sakinlərin buradan təcili köçürülməsinin vacibliyini vurğulamış, onları özlərinin və yaxınlarının həyatını təhlükəli vəziyyətdən uzaqlaşdırmağa inandırmağa çalışmışdır.

Bildirilmişdir ki, buradakı köçürülmə dövlət əhəmiyyətli tədbirlərlə bağlı deyil, binanın istismara yararsız qəzalı vəziyyətdə olması ilə əlaqədardır və vətəndaşlara ödəniləcək vəsait kompensasiya yox, maddi yardım kimi qiymətləndirilməlidir. Sözügedən binada sakinlərin köçürülməsi ilə bağlı ödəniləcək məbləğ isə müvafiq qanunvericiliyə uyğun olaraq şəhər üzrə maksimum həddə müəyyən edilib.



Sakinlərin böyük əksəriyyəti vəziyyəti dərk edərək ozlərinin və yaxınlarının həyatı ilə risk etməkdən çəkinmiş və maddi yardımlarını alıb binanı tərk etmişlər.

Sakinlərlə aparılan söhbətlərdən sonra daha 4 ailə qəzalı binanı tərk etmişdir. Hazırda binada yalnız 12 ailə qalıb ki, onlar özlərinə qarşı xüsusi yanaşma tələb edərək qeyri-real şərtlər irəli sürürlər. Belə ki, bu ailələrdən 6-sı 1990-cı illərdə binadakı boşalmış mənzilləri zəbt etmiş məcburi köçkün ailələridir. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən binada məskunlaşmış digər məcburi köçkünlərlə bərabər bu ailələrə də Qobupark yaşayış kompleksində yeni təmirli mənzillər təklif edilmişdir. Hətta bu ailələrin bəzilərinə ailə tərkibinə uyğun olaraq 2 mənzil təklif olunmuşdur. Lakin bu vətəndaşlar onlara təklif edilən mənzillərdən əlavə zəbt etdikləri mənzillərdən çıxmaq üçün maddi kompensasiya da tələb edirlər.

Daha 7 ailə isə sahəsi 12-15 kvadratmetr olan kiçik otaqlarda çox çətin şəraitdə yaşamaqda davam edirlər. Onlara müvafiq qanunvericiliyə uyğun olaraq maksimum həddə maddi yardım təklif edilmişdir. Lakin buna baxmayaraq həmin sakinlər qəzalı binadan köçmək istəmirlər.

Onu da əlavə edək ki, sakinlərin evlərindən köçürülməsi problemləri yeni deyildir. Dövlət obyektləri və ya yeni bina tikintisi zamanı əksər hallarda sakinlərin böyük hissəsi onlara təklif edilən kompensasiyalarla razılaşırlar. Yalnız bir neçə ailə olur ki, dövlət qurumlarından və ya tikinti şirkətlərindən özləri üçün daha çox, maksimum miqdarda vəsait əldə etmək üçün evləri boşaltmaqdan imtina edirlər. Onlar müxtəlif instansiyalara şikayətlər göndərir, hüquqlarının pozulmasını bildirərək bəzi KİV-ə müraciətlər edirlər.

Yasamal rayonu, M.A.Əliyev küçəsi, 150 ünvanındakı binadakı vəziyyəti adi problemlər sırasına aid etmək olardı. Çox hallarda sakinlər inadkarlıq edir, sonradan isə vəziyyəti dərk edərək qəzalı binanı tərk edirlər. Buradakı vəziyyətin digərlərindən fərqi isə kəskin qəzalı olan binadan vətəndaşların təcili olaraq təxliyə olunmasının vacibliyidir.

Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi görüş zamanı hər bir sakini təmkinlə dinləmiş, onların şikayət və istəklərinə qulaq asmışdır. Əgər insanlar özləri və yaxınlarının həyatının təhlükədə olduğunu başa düşmək istəmir, buna bilərəkdən yol verirlərsə, bu zaman qanunamüvafiq qaydada məcburi şəkildə köçürülmə tədbirlərinin görülməsi tətbiq edilə bilər. Binanın hər an uça biləcəyini yaddan çıxarmaq olmaz. Bu zaman vətəndaşların həyatının təhlükəsizliyindən vacib heç bir şey ola bilməz.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Qurban bayramı münasibətilə şəhid ailələrinə ərzaq yardımı ediləcək

Dünya müsəlmanlarının, o cümlədən Azərbaycan xalqının müqəddəs bayramlarından olan Qurban bayramı xalqımızın milli-mənəvi dəyərlərini bütün dolğunluğu ilə özündə əks etdirir. Ulu Öndər Heydər Əliyevin bizə miras qoyduğu tolerant Azərbaycanda Prezident İlham Əliyev tərəqqi, rifah, sülh və sabitlik yoluna sadiq qalaraq, dövlət siyasətində müqəddəs mənəvi dəyərlərə daim xüsusi yer verir, birlik və qardaşlıq dini olan islamın ümumbəşəri mahiyyətinə böyük hörmətlə yanaşır.







Bu səbəbdəndir ki, Azərbaycanda milli-mənəvi həmrəyliyin, saflıq və mərhəmətin təntənəsinə çevrilən Qurban bayramı hər il böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qeyd olunur. Ölkəmizin hər yerində Allah adına qurbanlar kəsilir, dövlətimizin, xalqımızın sosial-iqtisadi inkişafı və firavanlığı üçün dualar oxunur, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi ehtiramla yad edilir.

Mənəvi Dəyərlərin Təbliği Fondu da qarşıdan gələn müqəddəs Qurban bayramında şəhidlərimizi unutmur, onların ailələrinə, eləcə də müharibə veteranlarına və aztəminatlı ailələrə ərzaq yardımı göstərməyi planlaşdırır.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailələrinə, həmçinin müharibə veteranlarına dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev mütəmadi olaraq onlarla görüşür, problemlərini dinləyir, yaşayış şəraitlərinin və maddi rifahlarının yaxşılaşdırılması ilə bağlı sərəncamlar verir.

Mənəvi Dəyərlərin Təbliği Fondu da səlahiyyətlərindən irəli gələn vəzifələrin icrası, dövlət başçısının şəhid ailələri və müharibə veteranları ilə bağlı siyasətinə dəstək məqsədilə mütəmadi olaraq hər il Ramazan və Qurban bayramlarında, eləcə də digər müqəddəs günlərdə şəhid ailələrinə, müharibə veteranlarına, eyni zamanda aztəminatlı ailələrə ərzaq yardımı edir. Ramazan ayında şəhid ailələri, qazilər və aztəminatlı ailələrin iştirakı ilə iftar süfrələri təşkil edir.

Bu il fevralın 22-də fondun təşkilatçılığı ilə "Ədalət harayımız - Xocalı soyqırımı" konfransı keçirilmiş, tədbir çərçivəsində Xocalıdan olan 100 nəfərədək şəhid ailəsinin və aztəminatlı ailələrin nümayəndələrinə ərzaq yardımı paylanmışdır.

Bundan əlavə, martın 7-də Bakı şəhərində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə "Keçmişdən gələcəyə Azərbaycan qadını" mövzusunda konfrans keçirilmişdir. Konfrans çərçivəsində şəhidlərimizin qadın ailə üzvləri üçün ziyafət təşkil edilmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyətə başladığı 2 il ərzində Ramazan və Qurban bayramlarında ümumilikdə 300-dək şəhid ailəsinə, müharibə veteranına və aztəminatlı ailəyə ərzaq yardımı göstərmiş, Bakı, Gəncə, Mingəçevir, Sumqayıt, Şəki və Lənkəran şəhərlərində, eləcə də Masallı, Zaqatala, Quba, İsmayıllı, Qəbələ, Cəbrayıl, Lerik, Ağdaş, Balakən, Biləsuvar və Xaçmaz rayonlarında ümumilikdə 24 iftar süfrəsi təşkil etmişdir. Bu il müqəddəs Qurban bayramında 200-dək şəhid ailəsi, müharibə veteranı və aztəminatlı ailəyə ərzaq yardımının verilməsi nəzərdə tutulmuşdur.

Mənəvi Dəyərlərin Təbliği Fondu cəbhə bölgəsində yaşayan şagirdlərin sosial maddi cəhətdən dəstəklənməsinə də töhfə verir. Belə ki, ötən il cəbhə bölgəsində 1-ci sinfə gedəcək 100 nəfər uşağa məktəbli forması, çanta və dərs ləvazimatları hədiyyə edilmişdir. Ənənəyə sadiq olaraq bu il də fond tərəfindən yeni tədris ilinin başlanması münasibətilə "Öndəki birincilər" layihəsi çərçivəsində cəbhə bölgəsində 1-ci sinfə gedəcək 200 nəfər uşağa məktəbli forması, çanta və dərs ləvazimatlarının hədiyyə edilməsi nəzərdə tutulur.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# "Qarabağ"ın Kipr zəfəri



Dünən Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinə start verilib. Təmsilçimiz "Qarabağ" da növbəti matçına çıxıb. Qurban Qurbanovun komandası Kiprdə APOEL klubu ilə qarşılaşıb.

Nikosiyada keçirilən matçın 54-cü dəqiqəsində Ağdam klubu hesabı açıb. Mahir Emrelinin zərbəsi dəqiq alınıb - 0:1. Oyunun ikinci hissəsində "Qarabağ"ın yeni transferi Maqaye Qeye meydana daxil olub. Matçın 68-ci dəqiqəsində Mahir Emrelinin əvəzinə meydana girən fransalı forvardın 70-ci dəqiqədə topa ilk toxunuşu qolla nəticələnib - 0:2. Oyuna əlavə edilmiş vaxtda isə ev sahibi buraxdığı qollardan birinin əvəzini çıxıb.

Beləliklə, səfərdə Kipr təmsilçisini 2:1 hesabı ilə məğlub edən "Qarabağ" zəfərləri sırasına daha birini də əlavə edib.

Qeyd edək ki, Ağdam klubu Kipr təmsilçisini mübarizədən kənarlaşdırsa, pley-off mərhələsində PAOK (Yunanıstan) - "Ayaks" (Hollandiya) cütünün qalibi ilə qarşılaşacaq. Dünən Yunanıstanda keçirilən ilk oyun 2:2 hesabı ilə başa çatıb.

*"Azərbaycan"*

# ARDNF tərəfindən açıqlama

Ümumdünya Qızıl Şurasının (World Gold Council) avqustun 1-də yenilədiyi dünya ölkələri üzrə rəsmi qızıl ehtiyatlarının statistikası hesabatında Azərbaycanın bu reytinqdə yer alması ilə bağlı bildirmək istərdik ki, qeyd edilən qurum ölkələrin qızıl rezervləri barədə məlumatı Beynəlxalq Valyuta Fondundan (BVF) əldə edir və bu statistika özündə əsasən Maliyyə Nazirliyi və mərkəzi banklar kimi monetar və fiskal qurumların balansında olan qızıl ehtiyatlarını özündə birləşdirir. Bu səbəbdən Dövlət Neft Fondunun qızıl investisiyaları qurumun rüblük hesabatında öz əksini tapmamışdır.

Bildirmək istərdik ki, ARDNF-nin investisiya siyasəti və investisiya qaydalarının tələblərinə uyğun olaraq 30 iyun 2019-cu il tarixinə ARDNF-nin investisiya portfelinə daxil olan qızılın miqdarı 95,47 ton (3 069 414,783 troya unsiyası və ya 4 356,4 milyon ABŞ dolları) təşkil edir.

Nəzərinizə çatdırırıq ki, ARDNF-nin investisiya portfelinə daxil olan qızıl yatırımları ilə bağlı məlumatlar fondun rüblük və illik hesabatları vasitəsilə mütəmadi olaraq ictimaiyyətə açıqlanır.

## "Bakı Metropoliteni" QSC
## müxtəlif növ mühafizə vasitələri və geyim formalarının satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT 1 - "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ mühafizə vasitələrinin satın alınması**

**İştirak haqqı - 1200 manat**

**LOT - 2 "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ geyim formalarının satın alınması**

**İştirak haqqı - 1000 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 avqust 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **09 sentyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 sentyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Uruqvay ABŞ-a səfər edən vətəndaşlarına xəbərdarlıq etdi

Uruqvay ABŞ-a səfər etməyi planlaşdıran vətəndaşlarını bu ölkədə nifrət və zorakılıq zəminində törədilən cinayətlərin sayının artması ilə əlaqədar təhlükəsizlik tədbirlərini gücləndirməyə çağırmışdır. Çağırış Uruqvay Xarici İşlər Nazirliyinin bəyanatında yer almışdır.



Bəyanatda deyilir ki, nazirlik ABŞ-a səfər etmək niyyətində olan vətəndaşlarını təhlükəsizlik tədbirlərini gücləndirməyə çağırır. ABŞ-da nifrət və irqçilik zəminində törədilən cinayətlər nəticəsində son altı ayda 250 nəfərdən çox adam həlak olmuşdur. Bəyanatda qeyd olunur ki, ABŞ hakimiyyət orqanları belə hadisələrin qarşısını ala bilmir. Sənəddə Uruqvay vətəndaşlarına tövsiyə edilir ki, ABŞ-da olarkən adamların toplaşdığı yerlərə getməsinlər, tematik parklara, ticarət mərkəzlərinə, festivallara, dini və mədəni tədbirlərə qatılmasınlar, uşaqlarını belə yerlərə aparmasınlar.

Xatırladaq ki, ötən həftə ABŞ Dövlət Departamenti vətəndaşlarını Uruqvayda cinayətkarlığın səviyyəsinin artması ilə əlaqədar bu ölkəyə səfər edərkən təhlükəsizlik tədbirlərini gücləndirməyə çağırmışdı. Digər tərəfdən, keçən həftə ABŞ-ın Texas və Ohayo ştatlarında ticarət mərkəzində və barın yanında açılmış atəş nəticəsində təxminən 30 nəfər həlak olmuşdur.

# Beynəlxalq aləm

## Stoltenberq NATO-nun təhlükəsizliyinə əsas təhdidləri açıqladı



Böyük dövlətlərin rəqabəti, terrorizm və kibercinayətkarlıq NATO ölkələri və onların müttəfiqlərinin hazırda qarşılaşdığı başlıca təhdidlərdir. Bu bəyanatla NATO-nun baş katibi Yens Stoltenberq Yeni Zelandiyaya səfərinin gedişində çıxış etmişdir.

Stoltenberq birinci dərəcəli təhdid kimi Rusiya və Çin də daxil olmaqla böyük dövlətlər arasında rəqabətin güclənməsini göstərmişdir. O qeyd etmişdir ki, Rusiyanın hərbi gücünün artması qlobal üstünlük uğrunda mübarizənin fəallaşmasına dəlalət edir.

Baş katibin fikrincə, ikinci qlobal təhdid terrorizmdir. Stoltenberq martın 15-də Yeni Zelandiyada iki məscidin partladılması nəticəsində 51 nəfərin həlak olması və 50 nəfərin yaralanmasını, həmçinin 2011-ci ildə Osloda və Uayta adasında düşərgədə terror aktlarının baş verməsini xatırlatmışdır. O bəyan etmişdir ki, "biz forma və məzmunundan asılı olmayaraq, terrorizm və ekstremizmi pisləməliyik".

Stoltenberq kibertexnologiya və onunla əlaqəli cinayətkarlığın inkişafını başqa bir təhdid hesab edir. O qeyd etmişdir ki, "biz kiberhücumların adi hücumlar kimi təhlükəli olduğunu anlamağa başlamışıq". Baş katib əlavə etmişdir ki, NATO öz təsisatlarını virtual məkanda müdafiə etmək naminə fəal iş görür.

## Tramp Venesuelaya qarşı tam iqtisadi embarqo tətbiq etdi



Vaşinqton Venesuela hökumətinə iqtisadi təzyiqi gücləndirmək qərarına gəlmişdir. Bu məqsədlə ABŞ Prezidenti Donald Tramp bu ölkəyə qarşı tam iqtisadi embarqo tətbiq etmək barədə fərman imzalamışdır.

Ağ evin mətbuat xidməti məlumat vermişdir ki, bu fərmanla Tramp Venesuela hökumətinin ABŞ ərazisində yerləşən bütün aktivlərini dondurmuş, həmçinin onlarla hər hansı iqtisadi əməliyyat aparmağı qadağan etmişdir. Sanksiyalar Venesuela Mərkəzi Bankına və Dövlət Neft Şirkətinə də şamil olunmuşdur.

Humanitar yardım göstərilməsi ilə əlaqəli əməliyyatlar istisna təşkil etmişdir.

Venesuelada vəziyyət yanvarın 23-də müxalifətin lideri Quaydo külləvi etiraz aksiyalarından sonra özünü ölkənin müvəqqəti prezidenti elan etdikdən sonra gərginləşmişdir. ABŞ, Avropa ölkələrinin əksəriyyəti və Latın Amerikası ölkələri Quaydonu legitim dövlət başçısı kimi tanımışdır. Bir sıra digər dövlətlər, o cümlədən Rusiya Venesuelanın hazırkı Prezidenti Nikolas Maduronu dəstəklədiyini bəyan etmişdir.

## Çin Asiyada ABŞ raketlərinin peyda olmasına cavab verəcək

Çin ABŞ-ın yer bazalı ortamənzilli raketlər hazırlayıb Asiya və Sakit okean regionunda yerləşdirmək planından çox narahatdır. Çin Xarici İşlər Nazirliyinin silahlara nəzarət və tərksilah departamentinin direktoru Fu Sun bildirmişdir ki, bu plan gerçəkləşsə, Pekin cavab tədbirləri görməyə məcbur olacaq.

Fu Sun qeyd etmişdir ki, Çin Vaşinqtonun sözügedən planı reallaşdıracağı təqdirdə kənarda qalmayacaq: "Ştatlar dünyanın bu hissəsində yer bazalı ortamənzilli raketlər yerləşdirsə, biz əks tədbirlər görməli olacağıq".

## "Azərsu" ASC
## daxili vəsaiti hesabına su sərfiyyat ölçəni və ehtiyat hissələrinin satın alınması üçün
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, 431-47-67/2246 (agali.mirzeyev@azersu.az) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 sentyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **12 sentyabr 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 sentyabr 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi 15 iyul 2019-cu il tarixdə, **LOT 1** - Qeydiyyat və Notariat Baş İdarəsinin istismarında işlərin aparılması, avadanlıq kompleksinə və sistemin proqram təminatına daimi (gündə 24 saat) nəzarət, texniki dəstək və proqram lisenziyalarının yenilənməsi üzrə xidmətlərin göstərilməsi və **LOT 2** - Qeydiyyat və Notariat Baş İdarəsi, dövlət notariat ofisləri və qeydiyyat şöbələri üçün kondisioner, printer və kompüter avadanlıqlarının alınması üzrə keçirilməsi nəzərdə tutulmuş tender proseduranun müddəti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 32.2 maddəsinə əsasən 8 (səkkiz) təqvim günü müddətinə uzadılır.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14 avqust 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank zəmanəti sənədlərini isə **22 avqust 2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 avqust 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri haqqında Portal vasitəsilə tanış ola bilərlər.

E-şərtlər toplusunu 06 avqust 2019-cu il saat 17:00-dan sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC-nin Tender komissiyası tərəfindən 18.07.2019-cu il tarixdə **"Müxtəlif nəqliyyat sərfiyyatı mallarının satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 10.07.2019-cu il tarixdə keçirilmiş 1 LOT üzrə "Bakı Metropoliteni" QSC üçün reklam mallarının açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə **fiziki şəxs Əhmədova Nərgiz** qalib elan olunmuşdur.

Qalib gəlmiş fiziki şəxs ilə 251154,75 manat (iki yüz əlli bir min yüz əlli dörd manat 75 qəpik) ƏDV daxil məbləğində 02.08.2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası

**NURİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Sabunçu Rayon Məhkəməsinin sədri İlqar Abbasova qayınanası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yasamal rayonundan Əziz Əzizov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası

**NURİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin rəhbərliyi informasiya mərkəzinin müdiri Fərid Orucova əzizi

**CÜMŞÜD ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlal, Tahir, Elyar, Mahir və Mais Səfərovlar Yasif Nəsirliyə həyat yoldaşı

**ÜZAFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yasamal rayonundan Əziz Əzizov Əməkdar incəsənət xadimi, Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti Yasif Nəsirliyə həyat yoldaşı

**ÜZAFƏ NƏSİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası

**NURİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova əzizi

**ELNUR NUHOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası

**NURİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin hakimi İspəndiyar Şəfiyevə anası

**SONA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8997
Sifariş 2607
Qiyməti 40 qəpik